# Dünya və Azərbaycan romantizmi yeni araşdırma kontekstində

**Çağdaş ədəbiyyatşünaslığımızın və sənətşünaslığımızın görkəmli nümayəndəsi, Bakı Xoreoqrafiya Akademiyasının rektoru, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevin bu yaxınlarda çapdan çıxmış "Romantizm: təşəkkülü, problemləri, şəxsiyyətləri" (Bakı, Azərnəşr, 2020, 480 s.) monoqrafiyası dünya mədəniyyəti və ədəbiyyatında mühüm yer tutan romantizm probleminə həsr olunub. Kitabın elmi redaktoru akademik, millət vəkili İsa Həbibbəyli, rəyçiləri isə filologiya elmləri doktoru Məmməd Əliyev və sənətşünaslıq üzrə elmlər doktoru Məryəm Əlizadədir. Monoqrafiya müstəqillik dövründə romantizm probleminə həsr edilmiş sonuncu tədqiqat əsəri kimi maraq doğurur.**

Məlumdur ki, romantizm ədəbi cərəyanı yarandığı vaxtdan tədqiqat obyekti olub, zaman-zaman ədəbiyyatşünaslarımız romantizmin təşəkkül problemlərini və şəxsiyyətlərinin yaradıcılığını araşdırmışlar. Professor Timuçin Əfəndiyev isə problemi həm dünya ədəbiyyatı, həm də milli ədəbiyyat kontekstində təhlil etməyi üstün tutmuşdur. Bu, müəllifə problemə daha geniş prizmadan baxmağa imkan verir. Dünyanın bir çox xalqlarının ədəbiyyatında bir hadisə olan romantizm müxtəlif zaman və məkan kontekstində təzahür etmiş və başa çatmışdır. Bu müxtəliflik və fərqlilik tədqiqatçıya özünəməxsus təhlil metodu ilə problemi müxtəlif rakurslardan araşdırmaq imkanı yaradır. Çünki romantizm istər dünya, istərsə Azərbaycan ədəbiyyatında elə bir irsdir ki, onun keçdiyi yol, yaşadığı problemlər və ən görkəmli şəxsiyyətləri haqqında daim yeni-yeni tədqiqatlar aparılacaqdır.

### *Bu mənada*

***professor T.Əfəndiyevin "Romantizm: təşəkkülü, problemləri, şəxsiyyətləri" monoqrafiyası romantizmin yeni kontekstdə araşdırılması istiqamətində ilk addımlardandır. Müəllifin problemə dünya və Azərbaycan ədəbiyyatı kontekstində təhlilinin əsasında məhz bu amillər dayanır. Romantizmin nəzəri kontekstini də buraya daxil etdikdə problemin əhatəliliyi bir qədər də aydın olur. Belə ki, tədqiqatçı ilk dəfə olaraq romantizm problemini həm nəzəri, həm dünya, həm də milli ədəbiyyat kontekstində araşdırır. Bu yanaşma tədqiqatın əhəmiyyətliliyini və lakonikliyini daha da artırmış olur.***

Romantizm problemi professor Timuçin Əfəndiyevin elmi istiqamətində ilk dəfə deyil bu şəkildə əhatəli yer alır. Onun doktorluq dissertasiyası və romantizmin görkəmli nümayəndəsi Hüseyn Cavidlə bağlı araşdırmalarında bu problem öz əksini tapmışdır. Bunu nəzərdə tutan müəllif yazır: "Vaxtilə Azərbaycan romantizminin görkəmli nümayəndəsi Hüseyn Cavidin yaradıcılığı ilə bağlı "Hüseyn Cavidin ideyalar aləmi" (1985) adlı monoqrafiyanı yazarkən mövcud ədəbiyyatşünaslığın romantizm hadisəsini hələ bütün tamlığı üzə çıxarmaq potensialının olmadığını hiss etmişdim. Daha doğrusu, mövcud ideoloji rejim zamanı yazılan tədqiqatlar bu ədəbi hadisəni bütün keyfiyyətləri ilə üzə çıxarmağa imkan vermirdi.

### *Romantizmin araşdırılmasında*

xeyli boşluqlar var idi ki, onları sosrealist nöqteyi-nəzərdən qiymətləndirmək mümkün olmurdu".

**Tamamilə doğrudur. Bu kimi amillər müəllifi problemə yenidən qayıtmağa vadar etmişdir. Vaxtilə romantizmin iki yerə-mütərəqqi və mürtəce bölgülərinə bölünməsi də məhz bu yanlış yanaşmadan irəli gəlirdi. Bu mənada professor Timuçin Əfəndiyevin bu monoqrafiyası problemi bütün mahiyyəti ilə əhatə edir. Müəllif problemi beş fəsildə araşdırır. Birinci fəsil "Romantizm və onun nəzəri problemləri", ikinci fəsil "Dünya ədəbiyyatında romantizm", üçüncü fəsil "Azərbaycan romantizminin təşəkkülü problemləri", dördüncü fəsil "Azərbaycan romantizminin estetikası və poetikası", beşinci fəsil isə "Personaliya" adlanır. Sonuncu fəsildə professor Timuçin Əfəndiyev Azərbaycan romantizminin görkəmli nümayəndələri Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Cəfər Cabbarlı ilə birgə Səməd Mənsur, Əbdülxalıq Cənnəti, Ağadadaş Müniri, Əliabbas Müznib, İsmayıl Səfa, Əhməd Kamal kimi romantiklərin yaradıcılığını da araşdırmağa nail olur.**

"Romantizm və onun nəzəri problemləri" fəslində romantizmin bir ədəbi cərəyan olaraq yaranması və inkişaf problemləri izlənilir. "Romantizm bir ədəbi cərəyan kimi", "Romantizmin manifesti", "Romantizm estetikası və onun xüsusiyyətləri", "Romantizmin sənət konsepsiyası", "Romantizmin fəlsəfi əsasları", "Romantizmdə insan konsepsiyası" yarımfəsillərində problem bütün cəhətləri ilə təhlil ediliir. Burada romantizmin bir ədəbi cərəyan olaraq milli xüsusiyyətləri, yaranma problemləri, bədii estetikasının xüsusiyyətləri bütün parametrləri ilə açılır. Romantizmi, hər şeydən əvvəl, ümumdünya mədəniyyət və sənət hadisəsi kimi götürən professor onun çox geniş coğrafiyaya malik olduğunu, eləcə də Avropa, Amerika və müxtəlif xalqların ədəbiyyatlarında fərqli zamanlarda təzahürünü elmi şəkildə tədqiq edir.

***Mahiyyət etibarilə maarifçiliyə qarşı yönəlmiş romantizm manifestinin ilk dəfə olaraq təhlili verilir. Professor Timuçin Əfəndiyevə görə, romantizmin manifesti sənətkarların yaradıcılığında iki şəkildə təzahür edir:***




**1)** sənətkarlar romantizm haqqında ayrıca manifestlərini elan etməmiş, yeri gəldikcə bədii əsərlərində və yazılarında bu sənət konsepsiyası haqqında fikirlərini bildirmişlər; **2)** romantiklər romantizm nümunəli əsərlər yazmaqla yanaşı, həm də onun manifestini, ideya-estetik prinsiplərini işləyib hazırlamışlar. İkinci məsələyə ən yaxşı nümunə kimi fransız yazıçısı və dramaturqu Viktor Hüqo yaradıcılığı əsas götürülür. Məlumdur ki, dünya romantizminin ən görkəmli nümayəndəsi V.Hüqo romantizm estetikasının nəzəri-estetik prinsiplərini hazırlamışdır. 1827-ci ildə "Kromvel" dramına yazdığı "Ön söz"də sonralar romantizmin manifesti hesab olunacaq fikirlərini bəyan etmişdir. Bu manifestin ideyalarını yazıçı tarixi mövzuda yazdığı digər dramlarında və "Paris Notrdam kilsəsi" romanında da inkişaf etdirdi. Yazıçının bu əsəri yazmasının bir səbəbi də klassizmin məhdudluğuna qarşı çıxmaq olmuşdur. Bu manifestin romantizmin inkişafındakı roluna diqqət çəkən professor T.Əfəndiyev belə bir nəticəyə gəlir ki, romantizm heç də bütün zamanlarda yalnız bu manifest üzərində qərar tutmamış, sonrakı mərhələlərdə realizm və maarifçi realizmlə qaynayıb qarışmış, keçmişə məhəbbət, gələcəyə münasibət duyğuları ilə daha da zənginləşmişdir.

### *Romantizm estetikası*

**və onun sənət konsepsiyası ilə ilgili araşdırmalar da informativliyi və monumentallığı ilə fərqlənir. Avropa və Amerika romantizminin sənət estetikasında yaxınlıq və fərqlər nəzəri cəhətdən yaxşı əsaslandırılır. Göstərilir ki, romantizmin estetik parametrləri ingilis şairi Corc Bayron yaradıcılığında qabarıq şəkildə üzə çıxır. Romantizm sənətinin həyata münasibəti ən yaxşı şəkildə C.Bayronun estetik dünyagörüşündə ifadə olunur. Məhz onun yaradıcılığında yeni şeir dili, yeni poetik təsvir və ifadə vasitələri romantizmə yeni can və nəfəs verir.**

"Dünya ədəbiyyatında romantizm" fəslində dünya romantizmi və onun xüsusiyyətləri, ayrı-ayrı xalqların ədəbiyyatında romantizmin təzahür problemləri təhlil edilir. Onu da qeyd edim ki, bu təhlillər romantizmin dünyanın aparıcı xalqlarının ədəbiyyatındakı mövcudluğunu, yaranması, inkişaf problemləri və başaçatma prosesini konkret faktlarla detallı şəkildə ifadə edir.

### *Dünya ədəbiyyatında*

***romantizm problemi geniş anlayış olduğundan professor Timuçin Əfəndiyev romantizmin ən yaxşı şəkildə təzahür etdiyini alman, fransız, ingilis, polyak, rus, amerikan və türk, hətta italiya, danimarka, isveç, norveç kimi xalqların ədəbiyyatında izləyir. Burada ayrı-ayrı xalqların da ədəbiyyatında romantizmlə yanaşı, bu ədəbiyyatı inkişaf etdirən sənətkarların yaradıcılığına da nəzər yetirilir və onların romantizmin inkişafındakı rolu ortaya çıxarılır. Dünya romantizminin kontekstində Şelli, Bayron, Skott, Hüqo, Mitskeviç kimi şair və yazıçıların yaradıcılığı təhlil edilir. Bütün bu araşdırmalardan aydın olur ki, nə zaman yaranmasından asılı olmayaraq, ayrı-ayrı xalqların ədəbiyyatında romantizm hadisəsi bu və ya digər şəkildə milli azadlıq mübarizəsi ilə əlaqədar olmuşdur.***

### *Monoqrafiyada*

müəllif Azərbaycan romnatizmini üç istiqamətdə araşdırır; Azərbaycan romantizminin təşəkkül problemləri, romantizmin estetikası və poetikası, personaliya. Müəllif Azərbaycan romantizminin təşəkkül problemlərinə yenidən nəzər salır, ideologiyanın təsiri altında formalaşmış sovet ədəbiyyatşünaslığına bəzi təshihlər edir, romantizmin bir çox ideya-bədii xüsusiyyətlərini ortaya çıxarır. Bu mənada professor Timuçin Əfəndiyevin Azərbaycan romantizminin başlanğıcı, inkişaf problemləri və mərhələləri ilə bağlı fikirləri olduqca qiymətlidir. Monoqrafiyanın bölümlərindən biri "Azərbaycan romantizminin sosrealizm mərhələsi" adlanır. Professor tamamilə doğru olaraq, romantizmin 1920-ci ildə başa çatmadığını, sosrealizm dövründə də bu və ya digər şəkildə inkişaf etdiyini göstərir. Təkcə romantizmin görkəmli nümayəndəsi H.Cavidin bu dövrdə yazdığı əsərlərini göstərmək kifayətdir.

Professor Timuçin Əfəndiyev Azərbaycan romantizminin estetik prinsiplərini də müəyyənləşdirməyə çalışır. Bu estetik prinsipləri formalaşdıran mühit və şəxsiyyət problemi ilə bağlı müəyyən nəticələrə gəlir. Məlumdur ki, hər hansı bir "izm", konsepsiya yaranarkən onu irəli sürən ya şəxsiyyət, ya da cəmiyyət olmalıdır. Azərbaycan romantizminin estetik prinsiplərinin formalaşmasında T.Əfəndiyev Ə.Hüseynzadəni göstərir. Çünki bunu o adam edə bilərdi ki, dünya ədəbiyyatını, konkret olaraq dünya romantizmini yaxşı bilmiş olsun. Müəllif yazır: "Bu mənada Ə.Hüseynzadə yaradıcılığını və fəaliyyətini romantizmin nəzəri-estetik konsepsiyasının formalaşması ilə əlaqələndirmək daha doğru olardı.

### *Azərbaycan ədəbi prosesində*

Şərq və Qərb ədəbiyyatını dərindən bilən və yaradıcılığında onlara istinad edən Ə.Hüseynzadə "Həyat" və "Füyuzat"da yeni ədəbiyyatın istiqamətini də müəyyənləşdirməyə çalışırdı". "Füyuzat" jurnalı və romantiklər" yarımfəslində romantizm estetikasının formalaşmasında rolu olan ədəbi şəxsiyyətləri ortaya çıxarır. Tədqiqatda Azərbaycan romantizmini dünya romantizmindən fərqləndirən xüsusiyyətlər də ortaya çıxarılır. Milli romantizmin əsas mövzularından olan türkçülük, islamçılıq, turançılıq, milli istiqlal və hürriyyət ideyaları, vətən, millət mövzuları və s. yeni bədii nümunələrlə araşdırılır.

***Monoqrafiyanın son bölümü "Personaliya" adlanır. Professor Timuçin Əfəndiyev burada Azərbaycan romantizminin görkəmli nümayəndələri Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq yaradıcılığını romantizm kontekstində araşdırır və onların romantizmin inkişafındakı rolunu və yerini müəyyənləşdirir. C.Cabbarlı, S.Mənsur, Ə.Cənnəti, A.Müniri, Ə.Müznib kimi romantiklərin hər birinin yaradıcılığı haqqında ayrıca oçerklər verilir. Vaxtilə sovet ədəbiyyatşünaslığının "mürtəce romantiklər" kimi qələmə verdiyi şairlərin yaradıcılığı ilk dəfə olaraq ideoloji basqı olmadan həqiqi qiymətini alır. Monoqrafiyada Azərbaycan romantizminin inkişafında rolu olan türk şairləri İsmayıl Səfa və Əhməd Kamalın hər biri haqqında da ayrıca oçerklər verilmişdir. Bunlardan İ.Səfa Azərbaycan ədəbi mühitində qiyabi iştirak etmişdir, yəni şeirləri Azərbaycan mətbuatında nəşr edilmişdir. Ə.Kamal isə Azərbaycan ədəbi prosesində iştirak etmiş, romantizm hərəkatının birbaşa içində olmuşdur. Düşünürük ki, hər iki şairin həyat və yaradıcılığı ilə bağlı ayrıca oçerkin verilməsi tamamilə doğrudur. Çünki onların yaradıcılığı Azərbaycan romantizmin inkişaf prosesində fəal rol oynamışdır. Əsər yüksək elmi üslubda, həm də romantizmin nəzəriyyəsinə, dünya romantizminin tarixinə bələdliklə yazılıb.***

Professor Timuçin Əfəndiyevin "Romantizm: təşəkkülü, problemləri, şəxsiyyətləri" monoqrafiyası uzun illərdən sonra problemə yeni baxış sərgiləyir, bir çox yanlışlıqlara təshihlər verir, dünya və Azərbaycan romantizmini bir yerdə nəzəri və praktik istiqamətləri ilə kompleks şəkildə izləyir. Bu cəhətdən monoqrafiyanı çağdaş ədəbiyyatşünaslığımızın uğurlarından biri hesab etmək olar və əminəm ki, bu mənbə tədqiqatçıların, magistr və doktorantların stolüstü kitablarından biri olacaq. Bu yolda hörmətli Timuçin müəllimə uğurlar arzulayır və yeni-yeni əsərlərini gözləyirik.

**Vəfa Xanoğlan,**
**sənətşünaslıq üzrə elmlər doktoru**